**Həsənova Ş.Ş.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2020.62.87-99**
**UOT 343.63**

# Şərəf və ləyaqət fəlsəfi-hüquqi kateqoriya kimi

**Xülasə:** Hər kəsin şərəfi dedikdə, onun cəmiyyətin üzvü kimi əxlaqi, mənəvi keyfiyyətlərinə, digər insanlara, dövlətə, cəmiyyətə münasibətinə görə ona verilən qiymət, ləyaqəti dedikdə, şəxsin öz mənəvi və əqli keyfiyyətlərini, cəmiyyətdəki mövqeyini və nüfuzunu dərk etməsi və özünün özünə verdiyi qiymət, nüfuzu dedikdə isə şəxsin cəmiyyətdə, kollektivdə, dostlarının əhatəsində, təşkilatda öz qabiliyyətinə görə tutduğu mövqe başa düşülür. İnsanın şərəfi və ləyaqəti onun malik olduğu ən ali dəyərlərdəndir. Hüquq fəlsəfəsində şəxsiyyətin şərəfi və ləyaqəti haqqında hələ qədim zamanlardan etibarən müxtəlif fikirlər, ideyalar və yanaşmalar mövcud olub. Ləyaqət anlayışı bütün insanların əxlaqca bərabər olması ideyasına əsaslanırsa, şərəf anlayışı bunun əksinə, bütün insanların sosial, milli, ixtisas vəziyyətindən, işlədiyi kollektivdən, qazandığı etibardan asılı olaraq fərqləndirilməsi ideyasına əsaslanır. Şərəf və ləyaqət kateqoriyaları çoxtərəfli kateqoriyalardır. Onlara yalnız hüquqi, yaxud yalnız fəlsəfi anlayışlar kimi baxmaq doğru olmaz. Bu kateqoriyalara mənəvi, etik, sosioloji və s. bu kimi kontekstlərdə də baxmaq mümkündür.

Şərəf və ləyaqət kateqoriyalarının hüquqi müstəvidə tanınması üçün yalnız onların bir hüquq kimi bəyan edilməsi kifayət etmir, bu hüquqların tam mənada real olması üçün dövlət tərəfindən onların mühafizə və müdafiə mexanizmləri də nəzərdə tutulmalıdır.

Fiziki şəxslərin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu, şəxsi və ailə həyatının, şəxsi toxunulmazlığının müdafiəsi hüququnu qorumaq Azərbaycan Respublikasının Mülki Məcəlləsinin vəzifələrindən biridir. Fiziki şəxs onun şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən, şəxsi və ailə həyatının sirrini və ya şəxsi və ailə toxunulmazlığını pozan məlumatların məhkəmə qaydasında təkzib olunmasını tələb edə bilər, bu şərtlə ki, həmin məlumatları yaymış şəxs onların həqiqətə uyğun olduğunu sübuta yetirməsin. Azərbaycan Respublikasında şəxsiyyətin şərəf və ləyaqəti cinayət-hüquqi mühafizənin də obyekti kimi çıxış edir.

**Açar sözlər:** hüquq; fəlsəfə; şərəf; ləyaqət; müdafiə; təminatlar; hüquqi mövqelər; anlayışlar.

Şəxsiyyətin ləyaqəti haqqında təsəvvürlər ən qədim zamanlardan etibarən, hələ quldarlıq quruluşunda və ondan sonrakı ictimai-iqtisadi formasiyalarda formalaşaraq dünyanın diqqətini cəlb edən ən başlıca anlayışlardan birinə çevrilmişdir. İnsanın şərəfi və ləyaqəti haqqında mülahizələr hələ eramızdan əvvəlki filosofları da düşündürmüşdür. Bu anlamda, şərəf və ləyaqət kateqoriyaları konkret hüquqi məzmuna malik olan leqal anlayışlara çevrilməzdən cox əvvəllər artıq fəlsəfi kateqoriyalar kimi insanların təfəkküründə yer almışdır. Ləyaqət, vicdanla yanaşı, insanın cəmiyyət qarşısında öz borcunu və məsuliyyətini dərk edib, başa düşməsi xüsusiyyətlərindən biridir. Fəlsəfi mənada, şəxsiyyətin ləyaqəti həmçinin ətrafdakı adamlar və bütövlükdə cəmiyyət tərəfindən ona göstərilən münasibəti, hörməti, onun hüquqlarının etiraf edilməsini və digər tələbləri özündə ehtiva

♦ **Həsənova Şəlalə Şakir qızı** - hüquq üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunun "Cinayət hüququ və cinayət prosesi" şöbəsinin aparıcı elmi işçisi, Azərbaycan. E-mail: shelale.hasanova@gmail.com

edir. Hər iki halda ləyaqət şəxsiyyətin sosial və əxlaqi azadlığının mühüm tərəfi kimi çıxış edir. Bu anlayış öz məzmununa görə şərəf anlayışına çox yaxındır. Şərəf, eləcə də ləyaqət insanın davranışını və başqalarının ona münasibətini müvafiq şəkildə tənzimləyir. "Şərəf" kateqoriyasının sədaqət, ədalət, dürüstlük, alicənablıq kimi fərdi keyfiyyətlərin qiymətləndirilməsi ilə bağlı olanetik və sosial mənaları da mövcuddur. Ləyaqətdən fərqli olaraq, şərəf bütün insanların əxlaqca bərabərliyi prinsipinə deyil, onların fərqli qiymətləndirilməli olması (şəxsin sosial, sinfi, milli, ixtisas vəziyyətindən, işlədiyi kollektivdən, qazandığı etibardan asılı olaraq və s.) prinsipinə əsaslanır [5, s. 505; 10, s. 38].

Fəlsəfə tarixində ləyaqət kateqoriyasına müxtəlif yanaşmalar olub. Bu yanaşmaların demək olar ki, hamısının ortaq yönü ondadır ki, bunların hamısında ləyaqətli olmaq əxlaqi baxımdan hər zaman və davamlı olaraq yaxşı olma meylinə malik olmaq, yaxşı və doğru hərəkətlərə uyğun olmaq vəziyyətidir. Ləyaqətli olmaq müxtəlif çətinliklərədözmək hesabına, əxlaqi yaxşılığın təmin edilməsi, yaxşılıq uğrunda hərəkət etmə gücüdür. Hüquq fəlsəfəsində sofistlər, ləyaqətin öyrədilə biləcəyini müdafiə edir və öyrədirdilər. Onlar ləyaqətin insanlarda zamanla formalaşdığını bildirirdilər [11, s. 143; 12, s. 94].

Şərəf və ləyaqət kateqoriyaları çoxtərəfli kateqoriyalardır. Onlara yalnız hüquqi, yaxud yalnız fəlsəfi anlayışlar kimi baxmaq doğru olmaz. Bu kateqoriyalara mənəvi, etik, sosioloji və s. bu kimi kontekstlərdə də baxmaq mümkündür. Məsələn, E.Ə. Mollayeva qeyd edir ki: "Şərəf anlayışı mənəvi anlayış olub, insanın və onun fəaliyyətinin xalq, millət, cəmiyyət tərəfindən bəyənilməsini, təsdiq edilməsini, qəbul olunub qiymətləndirilməsini göstərir" [7, s. 6].

12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının 46-cı maddəsində, Birləşmiş Millətlər Təşkilatının 10 dekabr 1948-ci il tarixli "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi"ndə və 16 dekabr 1966-cı il tarixli "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktda, "İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında" Avropa Konvensiyasında təsbit edilmiş şəxsi və ailə həyatına hörmət hüququ ilə əlaqədar olaraq qeyd olunur ki, hər kəsin şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır, hər hansı hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz.

Fikrimizcə, T.Ə. Məmmədova, haqlı olaraq göstərir ki: "Vətəndaş cəmiyyətində şəxsin şərəf və ləyaqətinin müdafiəsi ön plana çıxan məsələlərdəndir. Şərəf və ləyaqətin müdafiəsi sadəcə dövlətin insanların şəxsi həyatına müdaxiləsini qadağan etmir. Eyni zamanda, insanların bir-birinin şəxsi məsələlərinə müdaxiləsini, ona qarşı şər-böhtanı, təhqiri qəbul etmir." [6, s. 44].

Şərəf və ləyaqətin mühafizəsi hər zaman söz azadlığı ilə rəqabətdə çıxış edir, çünki şərəf və ləqayətin alçaldılması, bir qayda olaraq, qarşı tərəfdən kiminsə, digər bir şəxsiyyət haqqında təhqiredici, böhtanatıcı, nüfuzdan salıcı və s. bu kimi fikir bildirməsini nəzərdə tutur. Nəzərə almaq lazımdır ki, söz azadlığı demokratik sistemin davamlılığı baxımından çox əhəmiyyətli olsa da, hər kəsin hüququnun sərhədləri qarşı tərəfin hüququna müdaxilə edən həddə qədərdir. Başqa sözlə, bir insanın söz azadlığına malik olması, ona başqa insanın şərəf və ləyaqətinə "dil uzatmağa" haqq qazandırmır. "İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında" Avropa Konvensiyasının10-cu maddəsinin 2-ci bəndinə əsasən də, fıkri ifadə etmək azadlığı digər şəxslərin nüfuzu və hüquqlarının müdafiəsi üçün məhdudiyyətlərə məruz qala bilər.

Avropa İnsan Hüquqları Məhkəməsi özünün Fressoz and Roire v. France işi üzrə qərarında ifadə etdiyi hüquqi mövqeyə görə, ifadə azadlığına hər hansı məhdudiyyətin "zəruriliyi" əsaslı qaydada müəyyən edilməlidir. Bir fakta da diqqət yetirmək lazımdır ki, şəxsiyyətin şərəf və ləyaqəti çox hallarda mətbuat işçiləri, o cümlədən digər şəxslər tərəfindən də məhz mətbuat (ənənəvi,yaxud

elektron, mətbu nəşr, qəzet, jurnal, yaxud sosial media (facebook, youtube və s.) fərq etmir) vasitəsilə alçaldılmış olur. Məhz bu kimi hallarla bağlı İnsan Hüquqlarına dair Avropa Məhkəməsi özünün presedent hüququnda göstərmişdir ki, mətbuatın demokratik cəmiyyətdə oynadığı "gözətçi" rolu xüsusi əhəmiyyət kəsb edən amildir, çünkionun vəzifəsi öz məsuliyyət və öhdəliklərinə uyğun qaydada siyasi məsələlər və ümumi maraq kəsb edən digər məsələlər barədə məlumat və fikirləri yaymaqdan ibarətdir, lakin mətbuat müəyyən hədləri, xüsusilə başqalarının nüfuz və hüquqlarına aid olan hədləri aşmamalıdır [13; 14].

Şərəf və ləyaqət kateqoriyalarının hüquqi müstəvidə tanınması üçün yalnız onların bir hüquq kimi bəyan edilməsi kifayət etmir, bu hüquqların tam mənada real olması üçün dövlət tərəfindən onların mühafizə və müdafiə mexanizmləri də nəzərdə tutulmalıdır. Hüquqların mühafizə mexanizmi onların pozumlası və məhdudlaşdırılmasını xəbərdar etməli, bu hüquqların pozulması və ya məhdudlaşdırılmasından öncə işləməli və ümumiyyətlə, hüquq pozuntularına qabaqlayıcı təsir göstərməlidir. Hüquq müdafiə mexanizmləri isə artıq pozulmuş və ya qanunsuz olaraq məhdudlaşdırılmış hüquqların bərpa edilməsi üçün zəruri hüquqi vasitə və imkanları təmin etməlidir. Hüquq ədəbiyyatındakı belə bir fikirlə razılaşmaq olar ki, müasir dövrdə cinayət hüququ şərəf və ləyaqətin həm mühafizə, həm də müdafiə sistemini, mülki hüquq da, öz növbəsində, şərəf və ləyaqət hüququnun cinayət məsuliyyətinə səbəb olmayan pozuntuları hallarında onun müdafiə sistemini təmin etməlidir [9, s. 25-26].

Azərbaycan Respublikasında yuxarıda qeyd edilən sistemlərin hər iki növü, yəni şərəf və ləyaqət hüququnun həm mülki-hüquqi müdafiə, həm də cinayət-hüquqi mühazifə sistemləri mövcudur. Belə ki, fiziki şəxslərin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu, şəxsi və ailə həyatının, şəxsi toxunulmazlığının müdafiəsi hüququnu qorumaq Azərbaycan Respublikasının Mülki Məcəlləsinin vəzifələrindən biridir (MM-in 1.2-ci maddəsi). Həmçinin MM-in 23-cü maddəsi bütövlükdə şərəfin, ləyaqətin və işgüzar nüfuzun müdafiəsinə həsr edilmişdir. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun "Şərəf və ləyaqətin müdafiəsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsi haqqında" 14 may 1999-cu il tarixli, 4 №-li Qərarında belə bir izah verilmişdir ki, məhkəmələr şərəf və ləyaqətin müdafiəsi barədə işlərə baxarkən üç halı aydınlaşdırmalı və onlara məcmu halında hüquqi qiymət verməlidir:

1) məlumatın vətəndaşların və təşkilatların şərəf və ləyaqətini ləkələməsi;

2) həmin məlumatların doğru olmaması;

3) bu məlumatların yayılması.

Məlumat əxlaqi prinsiplər, istehsal-təsərrüfat, xidmət və ictimai fəaliyyətlə əlaqədar cəmiyyət, kollektiv və yaxud ayrı-ayrı şəxslər arasında vətəndaşbarəsində mənfi rəy yaradırsa, o, şərəf və ləyaqəti ləkələyən məlumat hesab edilir. Yol verdiyi nöqsanlara görə vətəndaşın tənqid edilməsi onun şərəf və ləyaqətinin ləkələnməsi kimi qiymətləndirilə bilməz. Məlumatın doğru olmaması dedikdə, onun həqiqətə uyğun olmaması, yəni yalan olması anlaşılır. Məlumat başqa şəxsə, bir neçə şəxsə və yaxud qeyri-müəyyən şəxslər dairəsinə bildirildikdə yayılmış hesab edilir. Məlumat mətbuatda dərc edilməklə, radio və televiziya verilişlərində səsləndirilməklə, kinoxronikal proqramlarda nümayiş etdirilməklə, əsərlərdə təsvir edilməklə, yığıncaq və toplantılarda deyilməklə, məktub, ərizə və şikayətlərdə göstərilməklə, idarə, müəssisə və təşkilatlardan çıxan sənədlərdə qeyd edilməklə və s. üsullarla yayıla bilər. Məlumatın ona aid olan şəxsə təklikdə bildirilməsi həmin məlumatın yayılması sayılmır.

Başqası haqqında yalan məlumat yayan şəxsin hərəkətində cinayətin əlamətləri olduqda (təhqir, böhtan) zərər çəkən şəxslər onun cinayət məsuliyyətinə cəlb edilməsi barədə ərizə ilə

məhkəməyə müraciət edə, həm də yalan məlumatın təkzib edilməsi haqqında iddia qaldıra bilərlər [1].

Təcrübədən bir misala baxaq. Məsələn, Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 2(103)-1962/2017 №-li iş üzrə 5 aprel 2017-ci il tarixli qətnaməsindən görünür ki, həmin iş üzrə tərəflər ər-arvad olmuş, onlar arasında nikah pozulmasa da, faktiki olaraq ayrılmış, ayrı-ayrı ünvanlarda yaşamışlar. İddiaçı orta məktəb müəlliməsi, eyni zamanda direktor müavini idi. Tərəflərin arasındakı mübahisə isə cavabdehin iddiaçının barəsində yaydığı məlumatla bağlı olmuşdur. Belə ki, cavabdeh iddiaçının ona xəyanət etməsi, yəni onun dostu (cavabdehin dostu) ilə münasibətdə olması barədə məlumat yaymışdır. İddiaçı isə iddia etmişdir ki, bu məlumat yalandır, buna baxmayaraq cavabdeh həmin məlumatı qohumlarına, ailəvi dostlarına və işlədiyi əmək kollektivinə yaymış, nəticədə isə onun şərəfi, ləyaqəti və işgüzar nüfuzu ləkələnmişdir. İddia ərizəsində tələb olunmuşdur ki, həmin məlumat yalan məlumat kimi tanınsın; cavabdehin üzərinə vəzifə qoyulsun ki, onun yaşadığı ünvana təkzib məktubu göndərməklə ondan yazılı qaydada üzr istəsin; şərəfi, ləyaqəti və işgüzar nüfuzunun ləkələnməsi nəticəsində vurulmuş mənəvi zərərin əvəzi kimi cavabdehdən iddiaçının xeyrinə 30.000 manat tutulsun. Məhkəmə zamanı müəyyən edilmişdir ki, cavabdeh, həqiqətən də iddiaçının ona xəyanət etməsi, yəni onun dostu (cavabdehin dostu) ilə münasibətdə olması barədə məlumat yaymışdır. İşin bu halı iddiaçının izahatı və birinci instansiya məhkəməsində dindirilmiş şahidlərin ifadəsi ilə təsdiq olunmuşdur. Tərəflərin qonşusu olan şahid bildirmişdir ki, cavabdeh telefonla onun evinə zəng edərək ona demişdir ki, iddiaçı dostu ilə onu aldadıb. İddiaçı ilə eyni məktəbdə müəllim işləyən digər şahid də bildirmişdir ki, iddiaçı telefonla məktəbə zəng edərək ona demişdir ki, iddiaçı dostu ilə onu aldadıb. İddiaçı ilə eyni məktəbdə müəllim işləyən digər iki şahid də bildirmişlər ki, cavabdehin telefonla məktəbə tez-tez zəng etdiyinin və bu zənglərdən sonra iddiaçının vəziyyətinin pisləşdiyinin şahidi olmuşlar.

Məhkəmə belə hesab etmişdir ki, şahidlərin məhkəməyə yalan məlumat verdiyini güman etməyə əsas yoxdur, çünki iddiaçı iki uşaq anasıdır, müəllimdir, direktor müavinidir, inandırıcı deyil ki, o, özü barəsində belə (mənəvi-əxlaqi təsəvvürlərə uyğun gəlməyən) məlumatları iş yoldaşlarına və qonşusuna bildirsin, daha sonra isə həmin şəxsləri məhkəmədə onun ərinin əleyinə ifadə verməyə təhrik etsin. İddiaçı bildirmişdir ki, əri başqa qadınla birgə yaşamaq niyyətində olmuş, ondan ayrılmaq üçün bəhanə axtarmış, ona görə də belə məlumat yaymışdır.

Həmin iş üzrə məhkəmə belə qənaətə gəlmişdir ki, cavabdeh tərəfindən yayılan məlumat əxlaqi prinsiplər baxımından əmək kollektivində və qonşular arasında iddiaçının barəsində mənfi rəy yaratdığı üçün o, şərəf və ləyaqəti ləkələyən məlumat hesab edilməli, cavabdehin iddiaçı barəsində yaydığı həmin məlumatın həqiqətə uyğun olmadığı müəyyən edilməli, cavabdeh iddiaçının yaşadığı ünvana məktub göndərməklə ondan yazılı formada üzr istəməli və mənəvi zərərin əvəzi kimi iddiaçıya 1.000 manat pul ödəməlidir [4].

Azərbaycan Respublikasında şəxsiyyətin şərəf və ləyaqəti cinayət-hüquqi mühafizənin də obyekti kimi çıxış edir. Belə ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin vəzifələri sırasında sülhü və bəşəriyyətin təhlükəsizliyini təmin etmək, mülkiyyəti, iqtisadi fəaliyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, Azərbaycan Respublikasının konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumaqla yanaşı, insan və vətəndaş hüquq və azadlıqlarını cinayətkar qəsdlərdən qorumaq da yer alır (CM-in 2.1-ci maddəsi). CM-in Xüsusi hissəsində isə aşağıdakı tərkiblərdə şəxsiyyətin şərəf və (və ya) ləyaqəti əsas, yaxud əlavə qəsd obyekti kimi nəzərdə tutulmuşdur:

1) irqi ayrıseçkilik (aparteid), yəni hər hansı bir irqi qrupu əsarət altında saxlamaq üçün digər irqi qrup tərəfindən üstünlüyü təşkil və təmin etmək məqsədilə irqi qrupa və ya qruplara mənsub olan şəxslərin yaşamaq və azadlıq hüquqlarını inkar etmə, yəni irqi qrupa və ya qruplara mənsub olan şəxsləri öldürmə, onların sağlamlığına ağır zərər vurma və ya əqli qabiliyyətlərinə ciddi zərər vurma, işgəncə və ya qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza tətbiq etmə, yaxud özbaşınalıqla həbs və qanunsuz olaraq azadlıqdan məhrum etmə (CM-in 111.0.1-ci maddəsi);

2) özünü öldürmə həddinə çatdırma, yəni təqsirkardan maddi, xidməti və ya sair cəhətdən asılı olmuş zərərçəkmiş şəxsi onunla amansız rəftar etmə, onun ləyaqətini mütəmadi olaraq alçaltma, ona hədə-qorxu gəlmə yolu ilə özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırma (CM-in 125-ci maddəsi);

3) insan alveri zərərçəkmiş şəxsə işgəncə verməklə və ya onunla qəddar, qeyri-insani, yaxud onun ləyaqətini alçaldan rəftar etməklətörədildikdə (CM-in 144-1.2.8-ci maddəsi);

4) böhtan, yəni yalan olduğunu bilə-bilə hər hansı şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salanməlumatları kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında yayma (CM-in 147-ci maddəsi);

5) təhqir, yəni kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında şəxsiyyətin şərəf və ləyaqətininalayiq formada qəsdən alçaltma (CM-in 148-ci maddəsi);

6) internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtan atma və ya təhqir etmə (CM-in 148-1-ci maddəsi)

7) qəbir və ya meyit üzərində təhqiredici hərəkət (CM-in 245-ci maddəsi);

8) məhkəməyə hörmətsizlik etmə (məhkəmə baxışı iştirakçılarını təhqir etməklə məhkəməyə hörmətsizlik etmə; eyni əməlin hakim barəsində edilməsi) (CM-in 289-cu maddəsi);

9) işgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza (CM-in 293-cü maddəsi);

10) Azərbaycan dövlətinin başçısının – Azərbaycan Respublikası Prezidentinin şərəf və layaqətini kütləvi çıxışda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında ləkələmə və ya alçaltma (CM-in 323-cü maddəsi);

11) hərbi qulluqçunu təhqir etmə, döymə və ya işgəncə vermə (CM-in 331-ci maddəsi);

12) tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma, zərərçəkmiş şəxsin şərəf və ləyaqətini alçaltmaqla və ya ona qarşı zor tətbiq etməklə əlaqədar olduqda (CM-in 332-ci maddəsi).

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Xüsusi ittiham qaydasında şikayətlərə dair işlərə baxılması üzrə məhkəmə təcrübəsi haqqında" 21 fevral 2014-cü il tarixli, 3 №-li Qərarında da qeyd edilir ki, insanın şərəfi, ləyaqəti və nüfuzu hüququn ən ali bəşəri dəyərlərindən hesab olunur. İnsanın şərəfi, ləyaqəti və nüfuzu bir-biri ilə sıx surətdə bağlı olan mənəvi, əxlaqi və sosial dəyərlər olduğuna görə bu dəyərlər dövlət tərəfindən müdafiə olunur. Konstitusiya fikir və söz, məlumat və yaradıcılıq azadlıqlarını həyata keçirərkən hər kəsdən qanunlara riayət etməsini və başqalarının hüquqlarına hörmətlə yanaşmasını tələb edir [3].

F.S. Qarayev qeyd edir ki: "Şəxsiyyətin şərəf və ləyaqəti əleyhinə yönəlmiş əməllər cəmiyyətin ayrı-ayrı özəklərində və sferalarında normal münasibətlərin pozulması zəminində psixi gərginlik nəticəsində baş verir və müxtəlif motivlərlə bağlı olur. Bu növ əməllər ictimai

təhlükəliliyinə görə digərlərindən köklü surətdə fərqlənir və cəmiyyətdə ciddi problemlər yaradan sonluqla nəticələnir.” [8, s. 23].

Yeri gəlmişkən, xatırlatmaq istərdik ki, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumu “Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual və İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təkliflər verilməsi haqqında” 23 mart 2004-cü il tarixli Qərar qəbul etmişdir. Ali Məhkəmə bu qərarında qeyd etmişdir ki, kütləvi çıxışlar, informasiya vasitələri ilə əlaqəsi olmayan təhqir və böhtan üçün nə cinayət qanunvericiliyində, nə də inzibati qanunvericilikdəməsuliyyət nəzərdə tutulmuşdur və bu, qanunvericilikdəki boşluqla əlaqədardır. Belə hüquq pozuntusuna məruz qalmış şəxslərin hüquqlarının mülki hüquq normaları ilə qorunması ya effekt vermir, ya da prosedur baxımından mürəkkəbliyi üzündən vətəndaşları qane etmir [2].

## Biblioqrafiya

1. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun “Şərəf və ləyaqətin müdafiəsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsi haqqında” 14 may 1999-cu il tarixli, 4 №-li Qərarı. [Elektron mənbə]. URL: http://supremecourt.gov.az/post/view/ 144 (müraciət tarixi: 28.01.2020).

2. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun “Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual və İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təkliflər verilməsi haqqında” 23 mart 2004-cü il tarixli Qərarı. [Elektron mənbə]. URL: http://supremecourt.gov.az/post/view/157 (müraciət tarixi: 28.01.2020).

3. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun “Xüsusi ittiham qaydasında şikayətlərə dair işlərə baxılması üzrə məhkəmə təcrübəsi haqqında” 21 fevral 2014-cü il tarixli, 3 №-li Qərarı. [Elektron mənbə]. URL: http://supremecourt.gov.az/post/view/590 (müraciət tarixi: 04.02.2020).

4. Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 2(103)-1962/2017 №-li iş üzrə 5 aprel 2017-ci il tarixli Qətnaməsi. [Elektron mənbə]. URL: http://bakuappealcourt.gov.az/uploads/images/document/2-1962-17_0e5ffe51636844fb69d622117d7659b7.pdf (müraciət tarixi: 04.02.2020).

5. Fəlsəfə ensiklopedik lüğəti. B.: Azərbaycan Ensiklopediyası, 1997, 906 s.

6 Məmmədova T.Ə. Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər sistemində insan alveri cinayətinin yeri // Qanun, 2019, № 3 (293), s. 43-49.

7. Mollayeva E.Ə. Yeniyetmə qızlarda şərəf və ləyaqət hislərinin tərbiyə olunması üzrə işin sistemi: Pedaq. elm. namiz... dis. avtoref. Bakı, 2006, 25 s.

8. Qarayev F.S. Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə yönəlmiş əməllərin sosial-fəlsəfi təhlili: Fəlsəfə elm. namiz… dis. avtoref. Bakı, 2008, 28 s.

9. Киселев С.С. Уголовно-правовая охрана чести и достоинства личности: политика или объективная необходимость / Право и политика: история и современность. Материалы V всероссийской научно-практической конференции. Омск, 13-14 декабря 2013 г., с. 25-26.

10. Кузнецов В.В. Философия достоинства // Ведомости Санкт-Петербургского государственного политехнического университета. Гуманитарные и общественные науки, 2010, № 1, с. 35-42.

11. Философия права. Краткий словарь / Бачинин В.А., Сальников В.П.; Отв. ред.: Сандулов Ю.А. СПб.: Лань, 2000, 400 с.

12. Философия права. Социология права: Учебно-методическое пособие / Сост. А.А. Слинько, Ю.В. Сорокина, В.В. Ячевский. Воронеж: Изд-во Воронежского университета, 2003, 304 с.

13. European Court of Human Rights, Case of Fressoz and Roire v. France, 21.01.1999, Application No. 29183/95. [Электронный ресурс]. Режим доступа: https://hudoc.echr.coe.int/spa#{"itemid":["001-58906"]} (режим доступа: 06.02.2020).

14. European Court of Human Rights, Case of Goodwin v. The United Kingdom, 27.03.1996, Application No. 17488/90. [Электронный ресурс]. Режим доступа: https://hudoc.echr.coe.int/eng#{"itemid":["001-57974"]}(дата обращения: 06.02.2020).

**Hasanova Sh.Sh.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2020.62.87-99**
**UDC 343.63**

## Honour and dignity as a philosophical and legal category

**Abstract:** In honor of everyone, the value and dignity given to him as a member of a society for his moral and spiritual qualities, his attitude towards other people, the state and society, in his personal understanding of his moral and intellectual qualities, his position and reputation in society, but the position of the individual in society, in the collective, in the circle of friends, in the organization is understood. The honor and dignity of a person are the highest values that he possesses. Different ideas, ideas and approaches to the honor and dignity of a person have been present in the philosophy of law since ancient times. While the concept of dignity is based on the idea that all people are morally equal, the concept of honor is, by contrast, the idea of differentiating all people on the basis of their social, national, professional status, collective, and earned status. The categories of honor and dignity are multilateral categories. It is not right to view them as just legal or philosophical concepts. These categories include moral, ethical, sociological, and so on. This can be seen in contexts like this.

For the legal recognition of the categories of honor and dignity, it is not enough to just declare them as one law, and for their rights to be fully realized, the state must also provide for their protection and protection.

Protection of honor, dignity, business reputation of individuals, protection of personal and family life, personal immunity is one of the objectives of the Civil Code of the Republic of Azerbaijan. An individual may demand for judicial refutation of information that violates his honor, dignity or business reputation, violating the secrecy of personal and family life, or violating personal and family immunity, provided that the person who discloses such information is truthful. The honor and dignity of the person in the Republic of Azerbaijan also acts as an object of criminal law protection.

**Keywords:** law; philosophy; honor; dignity; protection; guarantees; legal positions; definitions.

## References

1. *Azerbayjan Respublikasi Ali Mehkemesinin Plenumunun “Sheref ve leyaqetinin mudafiesi barede qanunvericiliyinin mehkemeler terefinden tatbiq edilmesi tecrubesi haqqinda” 14 may 1999-ju il tarikhli, 4 №-li Qerarı* [Decision of the Plenum of the Supreme Court of the Republic of Azerbaijan “On the practice of application of the legislation on protection of honor and dignity by the courts” of May 14, 1999, No. 4]. Available at: http://supremecourt.gov.az/post/view/144_(accessed 28.01.2020).

♦ **Hasanova Shalala Shakir** – PhD in Law, Associate Professor, Leading Researcher of the Department for Criminal Law and Criminal Process of the Institute of Law and Human Rights of National Academy of Sciences of Azerbaijan. E-mail: shelale.hasanova@gmail.com

2. *Azerbayjan Respublikasi Ali Mehkemesinin Plenumunun "Azerbayjan Respublikasinin Jinayet, Jinayet-Prosessual ve Inzibati Khatalar Mejellesine deyishiklikler ve elaveler edilmesi barede qanunverijilik tashabbusu qaydasinda Milli Majlise teklifler verilmasi haqqinda" 23 mart 2004-ju il tarikhli Qerari* [Decision of the Plenum of the Supreme Court of the Republic of Azerbaijan dated March 23, 2004 "On Submission of Recommendations to the Milli Majlis on Amendments and Additions to the Criminal, Criminal Procedure and Administrative Offenses Code of the Republic of Azerbaijan"]. Available at: http://supremecourt.gov.az/post/view/157 (accessed 28.01.2020).

3. *Azerbayjan Respublikasi Ali Mehkemesinin Plenumunun "Khususi ittham qaydasinda shikayetlere baxilmasi uzre mahkama tajrubasi haqqinda" 21 fevral 2014-ju il tarikhli, 3 №-li Qerarı* [Decision of the Plenum of the Supreme Court of the Republic of Azerbaijan "On judicial practice of considering cases on special accusations" dated February 21, 2014]. Available at: http://supremecourt.gov.az/post/view/590 (accessed 04.02.2020).

4. *Baku Appelyasiya Mehkemesinin 2(103)-1962/2017 №-li ish uzre 5 aprel 2017-ji il tarikhli Qetnamesi* [Baku Appeals Court Decision of Case 2 (103) -1962/2017 dated April 5, 2017]. Available at: http://bakuappealcourt.gov.az/uploads/images/document/2-1962-17_0e5 ffe51636844fb69d 622117d7659b7.pdf (accessed 04.02.2020).

5. Felsefe ensiklopedik lugeti [Encyclopedic Dictionary of Philosophy]. Baku, Azerbayjan Ensiklopediyasi Publ., 1997, 906 p.

6. Mammadova T.A. *Shakhsiyyatin azadligi ve leyaqeti eleyhine olan jinayetler sisteminde insan alveri jinayetinin yeri* [The role of human trafficking in the system of crimes against human freedom and dignity]. Qanun Publ., 2019, no. 3 (293), pp. 43-49.

7. Mollayeva E.A. *Yeniyetme qizlarda sheref ve leyaqet hislerinin terbiye olunmasi uzre ishin sistemi* [System of work to instill feelings of honor and dignity in adolescent girls. PhD in Pedagogy Diss. Abstract]. Baku, 2006, 25 p.

8. Karayev F.S. *Shakhsiyyatin azadligi ve leyaqeti eleyhine yonelmish emellerin sosial-felsefi tehlili* [Socio-philosophical analysis of actions against personal freedom and dignity. PhD in Philosophy Diss. Abstract]. Baku, 2008, 28 p.

9. Kiselev S.S. *Ugolovno-pravovaya ohrana chesti i dostoinstva lichnosti: politika ili obektivnaya neobhodimost* / Pravo i politika: istoriya i sovremennost. Materialyi V vserossiyskoy nauchno-prakticheskoy konferentsii [Criminal law protection of the honour and dignity of the individual: politics or objective necessity. Law and politics: history and modernity. Materials of the 5th All-Russian Scientific and Practical Conference]. Omsk, 13-14 December 2013, pp. 25-26.

10. Kuznetsov V.V. *Filosofiya dostoinstva* // Vedomosti Sankt-Peterburgskogo gosudarstvennogo politehnicheskogo universiteta. Gumanitarnyie i obschestvennyie nauki [Philosophy of Dignity. Gazette of St. Petersburg State Polytechnic University. Humanities and Social Sciences], 2010, no. 1, pp. 35-42.

11. *Filosofiya prava. Kratkiy slovar* / Bachinin V.A., Salnikov V.P.; Otv. red.: Sandulov Yu.A. [Legal philosophy. Short dictionary] Sankt-Peterburg, Lan Publ., 2000, 400 p.

12. *Filosofiya prava. Sotsiologiya prava.* Uchebno-metodicheskoe posobie / Sostoviteli Slinko A.A., Sorokina Yu.V., Yachevskiy V.V. [Legal philosophy. The Sociology of Law. Educational and methodical aid]. Voronezh, Voronezh University Publ., 2003, 304 p.

13. European Court of Human Rights. *Case of Fressoz and Roire v. France*, 21.01.1999, Application No. 29183/95. Available at: https://hudoc.echr.coe.int/spa#{"itemid":["001-58906"]} (accessed 06.02.2020)

14. European Court of Human Rights. *Case of Goodwin v. The United Kingdom*, 27.03.1996, Application No. 17488/90. Available at: https://hudoc.echr.coe.int/eng#{"itemid": ["001-57974"]}(accessed 06.02.2020).

**Гасанова Ш.Ш.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2020.62.87-99**
**UOT 343.63**

## Честь и достоинство как философско-правовая категория

**Аннотация**: Понятие чести каждого отражает в себе оценку индивида по его моральным, этическим качествам. При определении категории «честь» берется за основу оценка человека в свете его взаимоотношений с государством, с обществом и иными индивидами. Понятие достоинства каждого отражает в себе, в первую очередь, самооценку индивида критериями которой, также выступают моральные, интеллектуальные и иными качества лица. Достоинство это оценка индивида познаваемая им самим. Репутация отражает в себе позицию и оценку лица в глазах окружающих, коллектива, в социуме и т.д., критерием которой выступает способности человека. Честь и достоинство человека являются одними из самых высших ценностей. Еще с давних времен в философии права были высказаны разные суждения о природе, понятии и содержании чести и достоинства личности. Понятие достоинства базируется на идее равенства всех людей по своим моральным качествам, в то время как понятие чести, наоборот базируется на идее разделения людей по разным качествам (национальность, профессия, коллектив, в котором работает человек, заработанная репутация и т.д.).

Категории честь и достоинство многогранны. Было бы не правильно рассматривать их только в качестве исключительно правовых, либо философских категорий. На самом деле, они также успешно могут быть исследованы в моральном, этическом, социологическом и т.д. контекстах.

Для признания категорий чести и достоинства в юридической сфере сама по себе декларация их в качестве прав человека недостаточна. Для полной реализации данных прав также требуется создание государством правоохранного и правозащитного механизмов данных прав.

Охрана права на защиту чести, достоинства, деловой репутации, личной и семейной жизни, личной неприкосновенности физических лиц является одной из задач гражданского законодательства Азербайджанской Республики. Физическое лицо может требовать опровержения в судебном порядке сведений, порочащих его честь, достоинство или деловую репутацию, нарушающих тайну его личной и семейной жизни или личную и семейную неприкосновенность, если лицо, распространившее такие сведения, не докажет, что они соответствуют действительности. Честь и достоинство также являются объектом уголовно-правовой охраны в Азербайджанской Республике.

**Ключевые слова:** право; философия; честь; достоинство; защита; гарантии; правовые позиции; дефиниции.

---

[♦] **Гасанова Шалаля Шакир кызы –** доктор философии права, доцент, ведущий научный сотрудник отдела «Уголовное право и уголовный процесс» Института права и прав человека Национальной Академии Наук Азербайджана. E-mail: shelale.hasanova@gmail.com

## Библиография

1. Постановление Пленума Верховного Суда Азербайджанской Республики «О практике применения судами законодательства о защите чести и достоинства» №4, от 14 мая 1999 г. [Электронный ресурс]. Режим доступа: http://supremecourt.gov.az/post/view/144 (дата обращения: 28.01.2020) (на азерб. яз)

2. Постановление Пленума Верховного Суда Азербайджанской Республики «О внесении предложений в Милли Маджлис в порядке законодательной инициативы об изменениях и дополнениях в Уголовный, Уголовно-процессуальный кодексы и в Кодекс об административных правонарушениях Азербайджанской Республики» от 23 марта 2004 г. [Электронный ресурс]. Режим доступа: http://supremecourt.gov.az/post/view/157 (дата обращения: 28.01.2020) (на азерб. яз.)

3. Постановление Пленума Верховного Суда Азербайджанской Республики «О практике рассмотрения судами дел о заявлениях, поданных в порядке частного обвинения» № 3, от 21 февраля 2014 г. [Электронный ресурс]. Режим доступа: http://supremecourt.gov.az/post/view/590 (дата обращения: 04.02.2020) (на азерб. яз.).

4. Постановление Гражданской коллегии Бакинского апелляционного суда по делу № 2(103)-1962/2017 от 5 апреля 2017 г. [Электронный ресурс]. Режим доступа: http://bakuappealcourt.gov.az/uploads/images/document/2-1962-170e5ffe51636844fb69d622117d7659b7.pdf (дата обращения: 04.02.2020) (на азерб. яз.)

5. Философский энциклопедический словарь. - Баку: Энциклопедия Азербайджана, - 1997. - 906 с. (на азерб. яз.).

6. Мамедова Т.А. Место преступления торговли людьми в системе преступлений против свободы и достоинства личности // Ганун. - 2019. - № 3 (293). - С. 43-49. (на азерб. яз.).

7. Моллаева Э.А. Система работы по воспитанию чести и достоинства у девочек-подростков. Автореф. дис… канд. пед. наук. - Баку, 2006. - 25 с. (на азерб. яз.).

8. Караев Ф.С. Социально-философский анализ действий, направленных против свободы и достоинства личности. Автореф. дис… канд. филос. наук. - Баку, 2008. - 28 с. (на азерб. яз.).

9. Киселев С.С. Уголовно-правовая охрана чести и достоинства личности: политика или объективная необходимость / Право и политика: история и современность. Материалы V всероссийской научно-практической конференции. - Омск, 13-14 декабря 2013 г. - С. 25-26.

10. Кузнецов В.В. Философия достоинства // Ведомости Санкт-Петербургского государственного политехнического университета. Гуманитарные и общественные науки, - 2010 - № 1. - С. 35-42.

11. Философия права. Краткий словарь / Бачинин В.А., Сальников В.П.; Отв. ред.: Сандулов Ю.А. - СПб.: Лань, 2000. - 400 с.

12. Философия права. Социология права. Учебно-методическое пособие / Сост. А.А. Слинько, Ю.В. Сорокина, В.В. Ячевский. - Воронеж: Изд-во Воронежского университета, 2003. - 304 с.

13. Европейский Суд по Правам Человека, дело Фресоз и Руар против Франции, 21.01.1999, заявление № 29183/95. [Электронный ресурс]. Режим доступа: https://hudoc.echr.coe.int/spa#{"itemid":["001-58906"]} (режим доступа: 06.02.2020)

14. Европейский Суд по Правам Человека, дело Гудвин против Соединенного Королевства, 27.03.1996, заявление № 17488/90. [Электронный ресурс]. Режим доступа: https://hudoc.echr.coe.int/eng#{"itemid":["001-57974"]}(дата обращения: 06.02.2020).